# Həftəlik
# *Bülleten*



**102**
**1 Avqust 2025**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az   www.atmia.az

**Prezident avtomobil yolunun təmirinə 2 milyon manat ayırdı – SƏRƏNCAM.**
Lerik rayonunun bir min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Hamarmeşə–Bibiyani avtomobil yolunun əsaslı təmirinə 2 milyon manat ayrılıb.
Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.
Sərəncama əsasən, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutmalı, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.



**Gəncə Memorial Kompleksinə 10 milyon ayrıldı – SƏRƏNCAM.**

Gəncə şəhərində inşa olunan Gəncə Memorial Kompleksində tikinti-quraşdırma işlərinin tamamlanması və muzey ekspozisiyasının təşkili məqsədilə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 10,5 milyon (on milyon beş yüz min) manat vəsait ayrılıb.
Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.
Sərəncama əsasən, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.
Sərəncam 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Gəncə şəhərində və digər yaşayış məntəqələrində həlak olan sakinlərin xatirəsinin əbədiləşdirilməsi və müharibə reallıqlarının əks etdirilməsi məqsədilə imzalanıb.



**Zakir İbrahimov: "Daşkəsən" dəmir filizi layihəsinin investisiya dəyəri 1,2 milyard dollar çivarında proqnozlaşdırılır.**

"AzerGold" QSC törəmə şirkətləri – "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC ilə birlikdə hasilatçı şirkətdən çoxprofilli sənaye subyektinə çevrilib. Bunu Naxçıvan Geologiya-Mədənçilik Forumunun rəsmi açılış mərasimində çıxış edərkən QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov deyib. Onun sözlərinə görə, regionun ən nəhəng dəmir filizi yataqları kompleksi olan "Daşkəsən" dəmir filizi sahəsi "Daşkəsən Dəmir Filiz"in böyük investisiya tələb edən irimiqyaslı layihəsidir. Layihənin investisiya dəyəri təqribən 1,2 milyard ABŞ dolları dəyərində proqnozlaşdırılır. "Qarşıdakı illərdə "Daşkəsən" dəmir filizi yataqlarının effektiv istismarı yerli polad istehsalçılarının yüksək keyfiyyətli yerli xammalla təmin olunması, metallurgiya sənayesinin idxaldan asılılığının azaldılması məqsədi daşıyır. Meqalayihə ölkənin makroiqtisadi göstəricilərinə müsbət təsirlər vəd edir. Dəmir yataqlarının istismara verilməsi ilə növbəti 19 ildə ÜDM-ə 13,2 milyard dollar dəyərində töhfənin verilməsi hədəflənir". İdarə Heyətinin sədri əlavə edib ki, layihənin aktiv fazasında fəaliyyətin birbaşa (1650 nəfər) və dolayı (2350 nəfər) effekti nəzərə alınmaqla 4000 nəfərdən çox vətəndaş üçün yeni iş yerlərinin yaradılması ilə bölgədə əhalinin məşğulluğuna ciddi töhfələrin verilməsi gözlənilir. Layihənin aktiv fazaya keçməsi ilə Gəncə-Daşkəsən iqtisadi rayonunun ölkəmizin ümumi iqtisadi göstəricilərdə payı əhəmiyyətli dərəcədə artacaq.



**Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı artıb.**

Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında hazırda investisiya portfeli 6 milyard manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, bunlardan da artıq 28-i fəaliyyət göstərir. 2015-ci ildən 2025-ci ilin I yarımilliyi daxil olmaqla Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 14,37 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 5,17 milyard manatlıq hissəsi ixracın payına düşür. Ötən ilin analoji dövrü ilə müqayisədə ixrac təqribən 20%-ə yaxın artıb. Parkda istehsal edilən tikinti kimyəvilərin, polad və polimer boruların, sürtkü yağlarının, polimerlərin, karbamidin, müxtəlif çeşiddə kabellərin, şüşə lövhələrin, keramik plitələrin və s. məhsulların ixracı istiqamətində uğurlar əldə edilib. Əsasən bu növ məhsullar dünyanın 70-dən artıq ölkəsinə “Made In Azerbaijan” brendi adı altında ixrac olunub. Burada sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin olunurlar. Həmçinin Parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar. Parkın rezidentlərinə indiyədək 912 ədəd təsdiqedici sənəd verilib ki, bunun nəticəsində rezidentlər texnika və texnoloji avadanlıqların idxalı zamanı 400 milyon manatdan çox vəsaitlərinə qənaət ediblər.



**Anar Quliyev: Şəhərsalma qlobal hədəflərin yerli fəaliyyətə çevrilməsində əsas rola malikdir.**

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev BMT-nin Məskunlaşma Proqramı və İtaliya Respublikasının Nyu-York şəhərindəki Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən "Dayanıqlı İnkişaf Məqsədlərinin Lokallaşdırılması üzrə Tərəfdaşlıq Platforması"na həsr olunmuş Yüksək Səviyyəli Tədbirdə iştirak edərək çıxış edib. Tədbir zamanı Komitə sədri Azərbaycan ilə İtaliya arasında enerji, ticarət, təhsil və mədəniyyət sahələrini əhatə edən ikitərəfli münasibətlərin yüksək səviyyəsini vurğulayıb, bu əməkdaşlığın şəhərsalma, yaşıl infrastruktur və DİM-lərin həyata keçirilməsi sahələrində də genişləndirilə biləcəyini qeyd edib. Anar Quliyev bildirib ki, Azərbaycan "Azərbaycan 2030: Milli Prioritetlər" çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərini sosial rifah, iqtisadi artım, ətraf mühitin qorunması və səmərəli idarəçilik prinsipləri ilə tam şəkildə inteqrasiya edib. "Daha yaxşı bərpa" prinsipinə əsaslanan yanaşmanın yalnız məcburi köçkünlərin qayıdışını deyil, həm də regionun gələcək şəhər inkişafına nümunə olacaq dayanıqlı və inklüziv məkanların formalaşdırılmasını nəzərdə tutduğu qeyd edilib. Komitə sədri həmçinin 2026-cı ilin may ayında Bakıda keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində DİM-lərin əsas müzakirə mövzularından biri olacağını diqqətə çatdırıb. Bu ilin oktyabr ayında Azərbaycanda keçiriləcək 3-cü Milli Şəhərsalma Forumu barədə məlumat verib.



**BakuBuild 2025 sərgisinin Təşkilat Komitəsi ilə ATMİA-nın növbəti onlayn görüşü baş tutdu.**

30.07.2025-ci il tarixində tərəfdaş olduğumuz BakuBuild 2025 sərgisinin Təşkilat Komitəsi ilə ATMİA-nın növbəti onlayn görüşü oldu. Görüş zamanı mötəbər tikinti tədbirində ATMİA üzvlərinə xüsusi təqdim olunan imkanlar, həmçinin, görülən işlərin cari vəziyyəti müzakirə olundu. BakuBuild 2025 sərgisində stend ilə, sərgi çərçivəsində təşkil olunacaq biznes forumda spiker qismində, habelə, Master-class təqdimatı ilə iştirak etmək istəyən üzvlərimiz ATMİA ilə əlaqə saxlaya bilər. 010 250 03 24.



Hörmətli ATMİA üzvləri!

Qırğız Respublikasının "BELEK" Kənd Təsərrüfatı Kooperativi tərəfindən 21–22 avqust 2025-ci il tarixlərində Çolpon-Ata (İssık-Kul) şəhərində "Xidmət kooperativi – sahibkarlığın beşiyi" adlı beynəlxalq təlim keçiriləcək.
Təlimdə xidmət kooperasiyası modelləri, sahibkarlığın təşkili üzrə yeni yanaşmalar, ittifaq ölkələri arasında iqtisadi əməkdaşlıq imkanları müzakirə olunacaq.

Əlavə məlumat və iştirak üçün əlaqə: 010 250 03 24

Hörmətli ATMİA üzvləri,

Qazaxıstanın "Nomad Union Company" şirkəti tərəfindən 24–26 sentyabr 2025-ci il tarixlərində Şımkent şəhərində "Aq qala Build – Şımkent" adlı beynəlxalq tikinti forumu keçiriləcək.

Forumda:

- İstehsalçılar və tikinti şirkətləri üçün xüsusi iştirak şərtləri
- Regional tikinti sahəsində innovativ yanaşmalar
- Yeni əməkdaşlıq imkanları təqdim olunacaq.

Əlavə məlumat və iştirak üçün əlaqə: 010 250 03 24

ATMİA

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: MINES, MINERALS & METAL ASIA - KARACHI 2025**

**Tarixlər: 23-25 avqust 2025-ci il,**

**Məkan: Karaçi Sərgi Mərkəzi, Karaçi (Pakistan)**

Mines Minerals & Metal Asia Beynəlxalq Sərgisi Pakistan Mədən, Mineral və Metallar bazarında ən əhəmiyyətli hadisədir.

**Sərginin adı: DESIGN HELSINKI 2025**

**Tarixlər: 24-25 avqust 2025-ci il,**

**Məkan: Helsinki (Finlandiya)**

Finlandiyanın ilk B2B beynəlxalq müasir dizayn festivalı. Design Helsinki müasir Skandinaviya dizaynında ən yaxşıları nümayiş etdirir və onun memarlıq və dizayn sənayesinə dərin təsirini vurğulayır.

**Sərginin adı: INTERNATIONAL COMMODITY FAIR 2025**

**Tarixlər: 25-27 avqust 2025-ci il,**

**Məkan: Timiryazev Mühəndislik Mərkəzi, Moskva (Rusiya)**

Beynəlxalq Əmtəə Sərgisi Çin Ticarət Nazirliyinin keyfiyyətli istehlak mallarının idxal-ixrac layihəsidir. Onun məqsədi Rusiya, Çin, Avropa və Orta və Mərkəzi Asiyadan olan biznes nümayəndələri arasında əlaqələri inkişaf etdirməkdir.

**Sərginin adı: JAPAN BUILD - OSAKA 2025**

**Tarixlər: 27-29 avqust 2025-ci il**

**Məkan: Intex Osaka, Osaka (Yaponiya)**

Asiyanın Tikinti və Mənzil Sənayesi üzrə Aparıcı Şousu. JAPAN BUILD ildə iki dəfə Tokio və Osakada keçirilən tikinti və mənzil sənayesini əhatə edən Asiyanın aparıcı sərgisidir.

**"DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Dayanıqlı Və Operativ Sosial Təminat Agentliyi" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin inzibati binasının dam örtüyünün əsaslı təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sücayət Əliyeva, Aparıcı mütəxəssis
Email: sujayat.f.aliyeva@sosial.gov.az
Əlaqə telefonu: +994 12 525 50 26



**"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER KEÇİRİR.**

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti tender keçirir.
Elanda Şəmkir şəhər Heydər Əliyev adına Mərkəzin cari təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elmir Murquzov, Satınalma mütəxəssisi
Email: tender@culture.gov.az
Əlaqə telefonu: +994 12 565 01 47 (448)



**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tender elan edir.
Elanda Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətində cari təmir işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Gülsüm İsmayılova, baş inspektor
Email: gulsum.ismayilova@migration.gov.az
Əlaqə telefonu: +994 12 565 61 18



**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİNİN TƏSƏRRÜFAT HESABLI ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT İDARƏSİ TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti Və Təchizat İdarəsi açıq tender elan edir.
Elanda Respublikanın bir sıra təhsil müəssisələrində təmir, kommunal-kommunikasiya və abadlıq işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Quliyev Zülfiqar, Baş mütəxəssis
Email: zulfugar.guliyev@etti.edu.gov.az
Əlaqə telefonu: +994 12 465 73 48



**SUMQAYIT ŞƏHƏR İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.**

Sumqayıt Şəhər İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda Sumqayıt şəhərində Abad məhəllələrin yaradılması işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rəhimdil Əhmədov, Baş məsləhətçi
Email: rahimdil.ahmadov@mail.ru
Əlaqə telefonu: +994 18 655 14 48



**AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ TENDER ELAN EDİR.**

Azərbaycan Turizm Və Menecment Universiteti açıq tender elan edir.
Elanda əsas tədris binasının cari təmir işlərinin satınalması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Hikmət Quliyev, Satınalma üzrə mütəxəssis
Email: h.quliyev@atmu.edu.az
Əlaqə telefonu: +994 12 564 42 33





**www.atmia.az**